# SEÇKİLƏRİN MONİTORİNQİ VƏ DEMOKRATİYANIN TƏDRİSİ MƏRKƏZİ

## AZƏRBAYCANDA MÜLKİ VƏ SİYASİ HÜQUQLARIN VƏZİYYƏTİNƏ DAİR




# FAKT XÜLASƏ - 2022

# I. XÜLASƏ

Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi (SMDT) Azərbaycanda insan hüquqlarının durumuna dair alternativ və açıq mənbələrdən toplanmış məlumatlar əsasında mülki və siyasi hüquqların pozulması hallarına dair hesabat hazırlayıb. SMDT Azərbaycanda insan hüquqlarının müdafiəsi, seçki sisteminin təkmilləşməsi, vətəndaşların idarəçilikdə iştirak imkanlarının artırılması və demokratik institutların təbliği yönündə çalışan qeyri-hökumət təşkilatıdır.
SMDT təəssüflə bildirir ki, Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi sahəsində əvvəlki illərdə qeydə alınan problemlər 2022-ci ildə də müşahidə olunub. 2022-ci ildə də ötən illərdə olduğu kimi vətəndaşlar tənqidi çıxışlarına görə təhdid və təzyiqlərə məruz qalıblar, dinc aksiyaların qarşısı mütəmadi olaraq alınıb, hökumətin tənqidçilərinə qarşı təqiblər davam edib.
2022-ci ildə qəbul edilən "Media haqqında" qanun ölkədə ifadə azadlığı, müstəqil media qurumlarının fəaliyyətinə yeni məhdudiyyətlər gətirib. Ümumiyyətlə, müstəqil media təmsilçiləri il ərzində davamlı olaraq təzyiq altında olub. Müstəqil media orqanları və peşəkar jurnalistlər peşə fəaliyyətlərinə görə zorakılığa və təhdidlərə məruz qalıb, veb saytlarına giriş məhdudiyyətləri, sosial media hesablarının ələ keçirilməsi kimi pozuntular qeydə alınıb.
Eyni zamanda, bu il təklif edilən "Siyasi Partiyalar haqqında" qanun yerli və beynəlxalq qurumların tənqidi rəyləri nəzərə alınmadan, ölkədə siyasi iştirak və birləşmək azadlığını məhdulaşdıran normaları milli qanunvericliyə gətirməklə qəbul edilib. Bu qanunla bağlı Avropa Şurası Venesiya Komissiyasının rəyi öyrənilməyib, qanun konseptual və geniş ictimai müzakirələr keçirilmədən tələsik şəkildə qəbul edilib.
Vətəndaş cəmiyyəti təşkilatlarının fəaliyyətini tənzimləyən normativ aktların Avropa Şurası standartlarına uyğun şəkildə təkmilləşdirilməsi baş verməyib. 2013-2014-cü illərdə siyasi motivlərlə həbs edilən hüquq müdafiəçilərinin hüquqlarının pozulması barədə Avropa İnsan Hüquqları Məhkəməsinin verdiyi qərarlar tam şəkildə icra edilməyib. İlin sonunda ictimai fəal Bəxtiyar Hacıyev qondarma ittihamlar əsasında azadlıqdan məhrum edilib. Ümumilikdə il ərzində siyasi məhbusların sayı ciddi şəkildə azalmayıb, hakimiyyət onların azadlığa buraxılması ilə bağlı siyasi iradə nümayiş etdirməyib.
SMDT bu il boyunca ümumilikdə 229 hal əsasında mülki və siyasi hüquqların dəyərələndirlməsini aparıb. Bu hallar arasında ədalətli mühakimə və məhkəmə araşdırması hüququ, sərbəst toplaşmaq azadlığı, ifadə azadlığı kimi hüquqların pozulması üstünlük təşkil edib.

SMDT hesab edir ki, mülki və siyasi hüquqların müdafiəsi üzrə vəziyyətin təkmilləşməsi, habelə insan hüquqlarının müdafiəsi sahəsində mövcud siyasi böhranın aradan qalxması üçün dövlət orqanları ilkin olaraq Azərbaycanda məhkəmə-hüquq sisteminin müstəqilliyinin təmin olunması ilə bağlı Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələrini icra etməli, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası ilə bağlı siyasi iradə nümayiş etdirməlidir.

SMDT siyasi hakimiyyətə çağırış edərək, vətəndaşların ifadə azadlığı, sərbəst toplaşmaq və birləşmək azadlıqlarının müdafiəsi ilə bağlı AİHM-in müvafiq qərarlarından irəli gələn müddəaları icra etməyi, "Media haqqında", "QHT-lər haqqında" və "Siyasi partiyalar haqqında" qanunların Avropa Şurası və ATƏT standartları əsasında təkmilləşdirməyi tövsiyyə edir.

## II. GİRİŞ

SMDT Azərbaycanda seçki sistemi, vətəndaş cəmiyyəti və demokratik institutların inkişafı sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatıdır.

SMDT 1 dekabr 2008-ci ildə qeydiyyatı ləğv edilmiş Seçki Monitorinq Mərkəzinin (SMM) bazası əsasında yenidən təsis olunub. Xatırladaq ki, 14 may 2008-ci ildə SMM-in qeydiyyatını Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əsassız iddiası əsasında Xətai Rayon Məhkəməsi ləğv edib. Bu hadisədən sonra SMM-in təsisçisi və üzvü olmuş şəxslər SMDT-ni təsis ediblər. Ancaq 2009-cu ildə SMDT-nin müraciətinə baxmayaraq, Ədliyyə Nazirliyi təşkilatı dövlət qeydiyyatına almaqdan imtina edib. 2021-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsi SMM-in qeydiyyatının ləğvi ilə bağlı şikayətə baxaraq birləşmək hüququnun pozuntusunu tanıyıb.[1] 2023-cü il yanvarın 12-də isə AİHM SMDT-nin 2009-cu ildə qeydiyyata alınmaması ilə bağlı Ədliyyə Nazirliyinin birləşmək hüququnun pozulmasını tanıyıb.[2]

SMDT (keçmiş SMM) 2001-ci ildən Azərbaycanda keçirilən 15 seçkinin monitorinqini həyata keçirib. Seçkilərin monitorinqi ilə bağlı SMDT indiyədək 14000 nəfərdən artıq vətəndaşa 600-dən çox təlim keçib və onların seçki komissiyalarında akkreditə olunmalarına hüquqi-texniki yardım göstərib.

SMDT ATƏT-ə üzv olan ölkələrin vətəndaş cəmiyyəti təşkilatlarını (VCT) birləşdirən Seçkilərin Monitorinqi Təşkilatlarının Avropa Şəbəkəsi (ENEMO), Şərq Tərəfdaşlıq ölkələrinin Vətəndaş Cəmiyyəti Forumu, Demokratik Seçkilər üzrə Avropa Platformasının (EPDE) və Azərbaycan İnsan Hüquqları Evinin üzvüdür.

### Metodologiya

Bu sənəd Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) 2022-ci il ərzində apardığı müşahidələr və vətəndaşların onlayn şikayətləri üzrə toplanan hüquq pozuntuları əsasında hazırlanıb. SMDT mülki və siyasi hüquqlarının pozulması halları üzrə iddiaları və rəyləri təhlil edərək, Azərbaycanda insan hüquqlarına dair cari vəziyyəti qiymətləndirməyə çalışıb. Hesabata mülki və siyasi hüquqlar kateqoriyasından olan müxtəlif növ hüquq pozuntularına dair statistik məlumatlar və bu hallar üzrə örnək faktlar daxil edilib.

***Sənədə daxil edilən statistik məlumatlar iki növ mənbələr əsasında toplanaraq təhlil edilib:***

***a) Vətəndaşların şikayətləri əsasında***

"Gözətçi" insan hüquqları portalına il ərzində vətəndaşlardan daxil olan şikayətlər onlayn rejimdə toplanılıb. Bu məlumatlarları dəqiqləşdirmək üçün şikayətçilərlə birbaşa əlaqə saxlanılıb, onlardan müxtəlif sənədlərin surəti, video və foto materiallar qəbul edilib. Bəzi hallarda toplanmış məlumatlar təsdiqini tapmayaraq nəzərə alınmayıb.

---

[1] Turan, (Dekabr 2021), https://www.turan.az/ext/news/2021/12/free/politics_news/az/10083.htm
[2] Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi, (Yanvar 2023), https://smdtaz.org/avropa-m%c9%99hk%c9%99m%c9%99si-%c9%99dliyy%c9%99-nazirliyinin-smdt-ni-qeydiyyata-almamasini-qanunsuz-saydi/

***b) Media monitorinqi əsasında***

SMDT 2022-ci il ərzində sosial media və kütləvi informasiya vasitələrində mülki və siyasi hüquqların pozulmasına dair məlumatları araşdıraraq ümumiləşdirmə aparıb. Bu zaman məlumatı açıqlayan şəxslər, xüsusən zərərçəkən tərəfin təmsilçiləri və vəkillərin rəyləri öyrənilib, hüquqi çəkişmələr barədə müvafiq rəsmi sənədlər əldə edilib.

Hazırkı sənəddə Turan İnformasiya Agentliyi, AzərTac İnformasiya Agentliyi, Amerikanın Səsi, AzadlıqRadiosu, BBC Azərbaycan, Meydan TV, Toplum TV və Abzas Media kimi media orqanları, Gözətçi İnsan Hüquqları portalı və Avropa İnsan Hüquqları Məhkəməsinin məlumatlarından istifadə olunub.

SMDT bu sənədin hazırlanmasında əməkdaşlıq etdiyi hüquqşünaslar, hüquq müdafiəçiləri və vəkillərə minnətdarlığını bildirir. Bundan başqa, SMDT sənədin ön səhifəsində istifadə olunmuş fotoşəkilə görə reportyor Fərqanə Novruzovaya təşəkkürünü bildirir.

## III. İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ ÜZRƏ SİYASİ ŞƏRAİT

Azərbaycanda 2022-ci il ərzində insan hüquqlarının müdafiəsi sahəsində siyasi böhran aradan qalxmayıb. Bu il mülki və siyasi azadlıqlarla bağlı normativ aktlara məhdudlaşdırıcı xarakter daşıyan dəyişikliklərlə müşayiət olunub. İl ərzində, həmçinin hökumətin tənqidçilərinə qarşı siyasi təqibləri və siyasi motivli həbsləri davam edib.

2021-ci ilin dekabrında Milli Məclisin gündəliyinə daxil edilən "Media haqqında" qanun yerli və beynəlxalq qurumların etirazları ilə qarşılanaraq, bu qanunda ifadə azadlığının məhdudlaşdırılmasına şərait yaradan müddəaların çıxarılmasına çağırışlar edilib. Çoxsaylı tənqidlərə baxmayaraq, 2022-ci ilin fevralında qanun parlamentdə qəbul edilib və qüvvəyə minib. Avropa Şurası Venesiya Komissiyası qanunun məhdudlaşdırıcı müddəalarına diqqət çəkərək bildirib ki, bu qanun indiki mühitdə ifadə azadlığını daha da təzyiq altına alıb.[3]

2022-ci ilin sentyabrında "Siyasi partiyalar haqqında" qanun layihəsi Milli Məclisin gündəliyinə daxil edilib. SMDT qanun layihəsinin mürtəce müddəalarına dair araşdırma sənədi yayaraq bildirib ki, qanun layihəsi hazırlanarkən Avropa Şurası Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun tövsiyyələri nəzərə alınmayıb. SMDT qanun layihəsində birləşmək və siyasi həyatda iştirak etmək hüququnu məhdudlaşdıran çoxsaylı maddələrin yer almasına etiraz edib.[4]

Bu qanunun qəbuluna etiraz edən siyasi təşkilatlar, ictimai fəallar və vətəndaş cəmiyyəti qrupları qanun layihəsinin birləşmək azadlığı ilə bağlı universal prinsiplərə zidd olduğunu bildirərək, müzakirədən çıxarılmasını, Avropa Şurası Venesiya Komissiyasının əvvəlki tövsiyyələri əsasında "Siyasi partiyalar haqqında" qanunun təkmilləşdirilməsini təklif ediblər. Etirazlara baxmayaraq, qanun layihəsi qısa müddət ərzində - dekabrın 16-da Milli Məclisdə qəbul edilib.[5] Qeyd edək ki, qanun layihəsinin müzakirə olunduğu dövrdə Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsi bu sənədlə bağlı Venesiya Komissiyasından ekspert rəyi almaq üçün bu quruma müraciət qəbul edib.[6]

---

[3] Amerikanın Səsi, (İyun, 2022), https://www.amerikaninsesi.org/a/6624869.html
[4] Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzi, (Sentyabr 2022), Https://www.shorturl.at/qQ568
[5] ToplumTV, (Oktyabr 2022), https://toplum.tv/siyaset/siyasi-partiyalar-haqqinda-qanun-layihesi-barede-feallar-ve-huquq-mudafiecileri-beyanat-yaydi
[6] Avropa Şurası Parlament Assambleyası,(Dekabr 2022), https://assembly.coe.int/committee/MON/2022/MON009E.pdf

2022-ci il ərzində əvvəlki illərdə oluğu kimi ədalətli mühakimə hüququ, sərbəst toplaşmaq, birləşmək azadlığı və ifadə azadlığının kobud və kütləvi şəkildə pozulması halları siyasi fəaliyyət imkanlarının mədhdulaşdırılmasına ciddi şəkildə rəvac verib. Belə ki, il ərzində əksər hallarda müxalif partiyaların sərbəst toplaşmaqla bağlı müraciətləri bir qayda olaraq təmin edilməyib, etiraz aksiyalarının qarşısı polis müdaxiləsi ilə alınıb, onlarla şəxs saxlanılıb və saxlandıqdan sonra polisin pis rəftarı ilə üzləşiblər.

Mayın 27-də imzalanan əfv sərəncamı ilə 10-dan çox siyasi məhbus hesab edilən şəxs azadlığa çıxıb. Ümumiyyətlə, nə əfv sərəncamı, nə də amnistiya aktı ölkədə siyasi məhbus sayının azalması yönündə ciddi dönüş yaratmayıb. Əskinə il ərzində siyasi motivli təqiblər davam edərək bəzi ictimai fəallar həm inzibati həbslərə, həm də azadlıqdan məhrumetmə ilə nəticələnən cinayət məsuliyyətinə məruz qalıblar.

## IV. HÜQUQ POZUNTULARI ÜZRƏ MONİTORİNQİN NƏTİCƏLƏRİ

2022-ci il ərzində SMDT-nin qeydə aldığı bəzi hüquq pozuntularının miqyası və xarakteri ötən illərdən fərqlənmədiyi üçün bu halları ölkədə sistemli baş verən hüquq pozuntuları hesab etmək olar. Ümumilikdə, SMDT 2022-ci ildə toplanmış 229 şikayət əsasında mülki və siyasi hüquqların pozulması üzə halları aşağıdakı kimi qruplaşdırıb:




### *a) Ədalətli mühakimə hüququ*

Hesabat üçün ədalətli mühakimə və məhkəmə araşdırması hüququnun pozuntusu ilə bağlı 65 şikayət əsas götürülüb.

Ədalətli mühakimə və məhkəmə araşdırması hüququnun pozulması halları əsasən prosesdə ərizəçinin və ya onun nümayəndəsinin iştirakı, açıq məhkəmə araşdırması, sübutların qəbuledilənliyi və

qiymətləndirilməsi, tərəflərin bərabərliyi, çəkişmə prinsipi, məhkəmə qərarlarının əsaslandırılması kimi prosessual hüquq normalarının pozuntusu formasında müşahidə olunub.

Ədalətli məhkəmə araşdırması hüququnun pozulması halları il ərzində tənqidi səsləri susdurmaq üçün siyasi sifarişli məhkəmə proseslərində qeydə alınıb. Belə ki, ictimai fəallar, hüquq müdafiəçiləri və siyasi təşkilatların təmsilçiləri sosial media platformalarındakı tənqidi və ya satirik yazılarından sonra təqiblərə məruz qalıblar. Belə şəxslərə qarşı siyasi təqib forması kimi əsasən İnzibati xətalar məcəlləsinin 510-cu (xırda xuliqanlıq), 535-ci (polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama) və Cinayət məcəlləsinin 234-cü (narkotik maddələrin qanunsuz dövriyyəsi) kimi maddələrdən istifadə olunub.

Sentyabrın 20-də Demokratiya 1918 Hərəkatının sədri Əhməd Məmmədli, noyabrın 11-də və 12-də isə bu hərəkatın digər üzvləri Orxan Zeynallı və Afiəddin Məmmədov küçədə mülki geyimli şəxslər tərəfindən saxlanılaraq, müxtəlif polis bölmələrinə aparılıblar. Sonradan hər üç şəxs İnzibati xətalar məcəlləsinin 535-ci (polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama) maddəsi ilə ittiham olunaraq 30 sutka həbs cəzası alıblar. Hərəkatın təmsilçiləri bu həbsləri Demokratiya 1918 təşkilatının işçi hüquqları və bölgələrdə siyasi fəallıqla bağlı çalışmaları ilə bağlı olduğunu bildiriblər.

2021-ci ildə saxlanılan Azərbaycan Xalq Cəbhəsi Partiyasının fəalı Şahin Hacıyevə qarşı cinayət işində də ədalətli məhkəmə araşdırılması hüququnun pozuntuları qeydə alınıb. Hacıyev Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi (külli miqdarda narkotik maddənin qanunsuz dövriyyəsi) ittiham olunsa da, AXCP rəsmiləri bildirib ki, o 2021-ci ildə tənqidi çıxışlarına görə iki dəfə inzibati qaydada həbs olunub və sonuncu həbs də onu siyasi fəaliyyətdən çəkindirmək məqsədi daşıyıb.[7] Hacıyev saxlanılan zaman polislərin işgəncələrinə məruz qaldığını iddia etsə də, bununla bağlı araşdırma təmin edilməyib. 2022-ci ilin 31 martında Gəncə Ağır Cinayətlər Məhkəməsi ona 6 il azadlıqdan məhrumetmə cəzası verib.[8]

2021-ci ilin dekabrın 2-də müxalif fəal Tofiq Yaqublu etiraz aksiyasında saxlandıqdan sonra polisin zorakılığı və işgəncələrə məruz qalıb. Yaqublu həm polis bölməsində, həm də bölmədən naməlum istiqamətdə aparılaraq ağır işgəncələrə məruz qalıb, üzündə kəskin qançır izləri olub. Ancaq 2022-ci il yanvarın 11-də Səbail Rayon Prokurorluğu Yaqublunun iddiasını əsassız sayaraq, cinayət işi açmaqdan imtina edib.

2021-ci il dekabrın 28-də jurnalist Nərgiz Absalamova etiraz aksiyasında polisin zorakı münasibəti ilə üzləşərək, yıxılıb. Absalamovanın Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda müayinə zamanı büzdüm sümüyünün sınması müəyyən olunub. Ancaq 2022- ci il fevralın 25-də Səbail Rayon Prokurorluğu Absalamovanın zorakılıq və işgəncə göstərməsi faktını əsassız sayaraq, cinayət işi açmaqdan imtina edib.[9]

### ***b) İfadə azadlığı***

2022-ci il ifadə azadlığını ciddi şəkildə məhdudlaşdıran yeni qanun layihəsinin qəbulu ilə başladı. Fevralın 10-da qüvvəyə minən "Media haqqında" qanunu tənqid edən vətəndaş cəmiyyəti və media təmsilçiləri bu sənədin ölkədə onlayn media platformaları, habelə müstəqil jurnalistlər və bloqqerlərin

[7] Amerikanın Səsi, (Mart 2022), https://www.amerikaninsesi.org/a/6506301.html
[8] Amerikanın Səsi, (Aprel 2022), https://www.amerikaninsesi.org/a/the-apfp-activist-was-sentenced-to-6-years-in-prison/6510969.html
[9] Arqument.az, (Mart 2022), https://arqument.az/az/jurnalistin-polis-zorakiliina-meruz-qalmasi-ile-bali-sikayeti-arasdirilmayacaq/;
Turan, (Yanvar 2022), https://www.turan.az/ext/news/2022/1/free/Social/az/304.htm/030

fəaliyyətinə ciddi əngəllər yaradacağını bildiriblər. Avropa Şurası Venesiya Komissiyası qanuna dair şərhində bildirib ki, qanunun bir çox müddəaları ya dəyişdirilməli, ya da tamamilə qanundan çıxarılmalıdır, çünki bu qanun Azərbaycanda mövcud mühitdə ifadə azadlığını daha da təzyiq altına salır.[10]
Sentyabrın 26-da ölkə başçısı İlham Əliyev "Media Reyestrinin aparılması haqqında" qaydaları təsdiqləyərək, ölkədə media qurumlarının reyestrdə qeydiyyatı başlanıb. Hökumət reyestrdə qeydiyyatın könüllü şəkildə aparlıdığını bildirsə də, Media Agentliyi reyestrə 6 ay ərzində müraciət etməyən Kütləvi İnformasiya Vasitələri ilə bağlı məsələyə məhkəmədə baxılacağını bildirib.[11]

İl ərzində ifadə azadlığının pozulması ilə bağlı 46 şikayət qeydə alınıb.

2022-ci il ərzində bəzi jurnalistlərə çəkilişlər zamanı əsassız maneələr yaradılıb, onlar polis bölmələrində təhqir və təzyiqlərlə üzləşiblər. Bəzi hallarda onlara aid əşya və cihazlar çəkiliş zamanı götürülüb.
Fevralın 15-də müharibə veteranlarının prezident administrasiyasının binası qarşısındakı aksiyasını işıqlandırarkən jurnalistlər Fatimə Mövlamlı və Sevinc Sadıqova saxlanılıblar. Onlar sonradan bildiriblər ki, onlar həm saxlanılarkən, həm də 9-cu polis bölməsində təhqir olunub, fiziki zorakılığa məruz qalıblar.[12]
Mayın 8-də jurnalist Aytən Məmmədova yaşadığı binanın blokuna daxil olarkən naməlum şəxsin bıçaqla təhdidinə məruz qalıb. Aytən Məmmədova ona hücumu Tovuzun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanı öldürməkdə şübhəli bilinən İlkin Süleymanovun məhkəmə işini işıqlandırması ilə əlaqələndirib.[13] Faktla bağlı cinayət işi açılsa da, sonradan jurnalist istintaqın hərəkətsizliyindən narazılığını ifadə edib.[14]

İyunun 7-də Yasamal rayonu ərazisində icra hakimiyyəti əməkdaşlarının mağazalara reydini işıqlarından ToplumTV jurnalistləri Nuray Kamal və Vüsalə Mikayıl təzyiqlə üzləşiblər. Onlara həm çəkilişi dayandırmaq üçün rüşvət təklif edilib, həm də jurnalist Vüsalə Mikayılın telefonu Yasamal rayonu icra hakimiyyəti əməkdaşı tərəfindən götürülüb.[15]
İyunun 23-də Abzas Media ilə əməkdaşlıq edən jurnalist Nərgiz Absalamova Koroğlu metrosu yaxınlığında polislə vətəndaşlar arasında mübahisəni işıqlandırarkən oxşar təzyiqlərlə üzləşib. Polis əməkdaşı ondan çəkilişi dayandırmağı tələb edib, bundan sonra isə onun jurnalist vəsiqəsini müsadirə edib.[16]

### c) *Azadlıq və Toxunulmazlıq Hüququ: Siyasi məhbuslar*

Siyasi motivlərlə həbs edilən şəxslərlə bağlı işlərdə onların azadlıq və toxunulmazlıq hüququnun pozulması ilə yanaşı saxlanma yerləri və həbsxanada işgəncə və pis rəftara məruz qalması barədə bərabərlik kimi hüquqların pozulması ilə müşahidə olunub.

İl ərzində siyasi motivlərlə azadlıq və toxunulmazlıq hüququnun 40 dəfə pozulmasına dair iddianı

---

[10] Amerikanın Səsi, (Iyun 2022), https://www.amerikaninsesi.org/a/6624869.html
[11] Azadlıq Radious, (Oktyabr 2022), https://d3vv0252ivd0w5.cloudfront.net/a/media-qanun-reyestr/32094692.html
[12] Amerikanın səsi, (Fevral 2022), https://www.amerikaninsesi.org/a/journalists-fatima-movlami-sevinj-sadigova-detained/6442170.html
[13] BBC Azərbaycanca, (May 2022), https://www.bbc.com/azeri/azerbaijan-61380757
[14] ToplumTV, (May 2022), https://toplum.tv/sosial/ayten-memmedova-istintaqdan-narazidir
[15] Toplum TV, (İyun 2022), https://xeber.media/news/18309272/icra-hakimiyyetinin-emekdasi-jurnalistlere-rusvet-teklif-edib-siz-cavan-qizlarsiniz-video
[16] Arqument.az, (İyun 2022), https://arqument.az/az/bakida-jurnalist-polis-zorakilii-ile-uzlesdi-vesiqesi-alindi/

araşdırıb. Bu pozuntulardan 15 hala inzibati qaydada həbslər, 5 hala isə cinayət işinin açılması daxildir. Digər hallara isə ictimai fəallar, siyasi təşkilatların təmsilçiləri və hökuməti tənqid edən sosial media istifadəçilərinin qısa müddətə saxlanılması, polisə çağrılaraq sorğu-sual edilməsi və ya oğurlanaraq naməlum istiqamətə aparılması kimi nümunələr aiddir.

Mayın 27-də imzalanan əfv sərəncamı ilə siyasi məhbus hesab olunan şəxslərdən bəziləri azadlığa buraxılıb. Belə ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvləri Saleh Rüstəmovla Paşa Umudov, Azel.TV saytının rəhbəri Əfqan Sadıqov əflə azad olunanlar arasında olub. Bu əfv sərəncamı ölkədəki bütün siyasi məhbuslara şamil edilmədiyindən, yarımçıq xarakter daşıyıb. Hazırda, hüquq müdafiə təşçkilatları arasında siyasi məhbusların sayı barədə müxtəlif iddialar olsa da, ölkədə ən azı 70 nəfərin siyasi motivlərlə həbs edildiyini təxmin etmək olar. Çünki il ərzində siyasi təqiblər davam edib və yeni siyasi motivli cinayət işləri başlayıb.

Mayın 24-də keçmiş siyasi məhbus Rəşid Ramazanov sosial mediada tənqidi çıxışlarına görə yenidən cinayət məsuliyyətinə cəlb olunub. Ona qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsilə (külli miqdarda narkotik maddənin qanunsuz dövriyyəsi) cinayət işi açılıb. Xatırladaq ki, Rəşad Ramazanov 2013-cü ildə də eyni maddə ilə ittiham olunaraq, 9 il müddətinə azadlıqdan məhrum edilib. O zaman onun həbsini yerli insan haqları qrupları siyasi motivli sayıblar.

Bundan başqa, sentyabrın 12-də hüquq mühafizə orqanları jurnalist Əvəz Zeynallı və hüquq müdafiəçisi, vəkil Elçin Sadıqovun ofislərində axtarış həyata keçiriblər. Nəticədə isə hər iki şəxs barədə sonda Cinayət Məcəlləsinin 311-ci (passiv rüşvətxorluq) maddəsi ilə 4 aylıq həbs-qətimkan tədbiri seçilib. Onların məhkəməsi davam edən iş adamı Rasim Məmmədovdan rüşvət almaları iddia olunsa da, ittiham olunan şəxslər, onların vəkilləri və geniş ictimaiyyət bunu onların jurnalistika və hüquq fəaliyyətləri, tənqidi çıxışları ilə əlaqələndiriblər.[17] Elçin Sadıqov sonradan ev dustaqlığına buraxılsa da, paytaxt Bakını tərk etməmək qadağası ona vəkil kimi bütün Azərbaycan ərazisində fəaliyyət göstərməyə maneə yaradıb.

2022-ci il ərzində hökumət tənqidçilərinə qarşı artan siyasi motivli təzyiq halları ilə bağlı SMDT hesabat yayıb.[18] Hesabatda qeyd olunur ki, ilin ilk 8 ayında ən azı 20 hal üzrə siyasi fəallar, vətəndaş cəmiyyəti nümayəndələri, ictimai fəallar, bloqqer və jurnalistlər hüquq-mühafizə orqanlarının siyasi motivli təqibinə məruz qalaraq saxlanılmış və ya polisə aparılaraq hədə-qorxuya məruz qalıblar.

2022-ci il ərzində Almaniyada sığınacaq almaq üçün müraciət etmiş xeyli sayda azərbaycanlı miqrant ölkəyə geri deportasiya olunub. Almaniyada siyasi fəallığı ilə seçilən, xüsusən də Azərbaycan hakimiyyəti əleyhinə etiraz aksiyalarında iştirak edən bəzi şəxslər ölkəyə geri qayıdandan az sonra siyasi təqiblərə məruz qaldıqlarını bildiriblər. Məsələn, 2022-ci ildə Almaniyadan deportasiya olunmuş şəxslərdən 6 nəfər müxtəlif ittihamlar üzrə cinayət məsuliyyətinə cəlb olunublar. Onlardan 4 nəfər – Mütəllim Orucov, Malik Rzayev, Cəfər Mirzəyev və Pünhan Kərimli narkotik ittihamları ilə, Samir Aşurov qəsdən sağlamlığa zərər yetirmək, Ziya İbrahimli isə məhkəmə hökmünü icra etməmək ittihamı üzrə saxlanılaraq, həbs ediliblər. Bu şəxslər yaxınları və vəkilləri vasitəsilə ittihamları əsassız hesab etdiklərini, Almaniyada Azərbaycan hökuməti eləyhinə siyasi çıxışlarına görə təqibə məruz qaldıqlarını bildiriblər. İl ərzində saxlanmış şəxslərdən yalnız bir nəfər - Ziya İbrahimli sonradan icra sənədlərinə aid tələblər yerinə yetirildiyi üçün azadlığa buraxılıb.[19]

---

[17] BBC Azərbaycanca, (Sentyabr 2022), https://www.bbc.com/azeri/azerbaijan-62883857
[18] SMDT, (Sentyabr 2022), https://smdtaz.org/smdt-az%c9%99rbaycanda-hokum%c9%99t-t%c9%99nqicil%c9%99rin%c9%99-qarsi-artan-siyasi-motivli-hucumlari-qinayan-aciqlama-yayib/
[19] Azadlıq Radiosu, (Noyabr 2022), https://d3vv0252ivd0w5.cloudfront.net/a/ziya-ibrahimli/32146983.html

2022-ci il ərzində öncədən həbs olunmuş siyasi məhbsular saxlanma şəraitindən narazılıqları və onlara qarşı pis rəftar barədə məlumat yayıblar. Polad Aslanovun həyat yoldaşı aprelin 4-də Penitensiar Xidmətin inzibati binasında qarşısında aksiya keçirərək bildirib ki, Aslanov 1 saylı cəzaçəkmə müəssisəsində təxribatlara məruz qalıb, onu döyüblər. Ancaq bununla belə aidiyyatı qurumlar faktla bağlı cinayət işi açmaqdan imtina ediblər.[20]
Dindar məhbuslardan Taleh Bağırzadə, Abbas Hüseynov və Cabbar Cabbarov isə polis bölmələrində Allahın təhqir olunduğunu əsas gətirərək etiraz əlaməti olaraq iyunun 3-dən başlayaraq qısamüddətli aclıq aksiyaları keçiriblər.

### *d) Sərbəst toplaşmaq azadlığı*

İl ərzində ölkə üzrə sərbəst toplaşmaq azadlığının pozulması üzrə 20 hal qeydə alınıb.

Sərbəst toplaşmaq azadlığı əsasən dinc etiraz aksiyalarına yerli icra hakimiyyəti orqanlarının tətbiq etdiyi qadağalar, dinc yürüş və piketlərin polislərin müdaxiləsi nəticəsində dağıdılması halları üzrə pozulub.

Rusiyanın Ukraynada başladığı işğalçı müharibəyə etiraz edən vətəndaş cəmiyyəti təmsilçiləri fevralın 27-də Ukraynanın Bakı şəhərindəki səfirlik binası önündə dəstək aksiyası keçiriblər. Aksiyaya polis müdaxilə etməsə də, bu aksiyanın təşkilatçılarından biri Şahin Cəfərli polis bölməsinə çağrılaraq xəbərdarlıq edilib.

8 mart Beynəlxalq Qadınlar Günü ilə bağlı feminist fəalların keçirdiyi dinc aksiya zamanı polis əməkdaşları bəzi plakatları götürüb və aksiyanın uzun müddət davam etməsinə imkan verməyiblər.

Mayın 14-də bir qrup vətəndaş cəmiyyəti fəalları hökumətin siyasi təqiblərinə etiraz məqsədilə Bakının Fəvvarələr meydanında aksiya keçirməyə cəhd ediblər. Ancaq polis orqanları həm aksiya öncəsi, həm də aksiya zamanı xeyli sayda fəalı saxlayaraq, aksiyanın tam keçirlməsinə imkan verməyiblər.[21]

Azərbaycan Xalq Cəbhəsi Partiyası “Siyasi Partiyalar haqqında” qanun layihəsinə etiraz məqsədilə sentyabr-noyabr aylarında 3 dəfə Milli Məclisin və Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında etiraz aksiyası keçirməyə cəhd edib. Ancaq həm Bakı Şəhər icra hakimiyyəti bu aksiyalara razılıq verməyib, həm də polis əməkdaşları dinc aksiya iştirakçılarını toplaşmağa imkan verməyərək, onları ərazidən zorakılıqla uzaqlaşdırıb.[22]
Müsavat partiyasının İran İslam Respublikasının Bakıdakı səfirliyi qarşısında noyabrın 15-də təyin etdiyi aksiyası, o cümlədən quru sərhədlərinin açılması ilə bağlı iyulun 20-də Nazirlər Kabinetinin qarşısında keçirilən aksiya da polisin müdaxiləsi ilə dağıdılıb.

Dekabrın 23-də ictimai fəal Bəxtiyar Hacıyevə azadlıq tələbi ilə Fəvvarələr Meydanına təyin olunan aksiyasına polisin kobud müdaxiləsi və iştirakçıların zorla saxlanılaraq ərazidən uzaqlaşdırılması vasitəsilə imkan verilməyib. Bu aksiya zamanı jurnalistlərdən İsmayıl Tağıyev polis zorakılığı ilə

[20] Operativ TV, (Aprel 2022), http://operativ.tv/polis-polad-aslanovun-hbsd-doyulmsi-il-bagli-cinayt-isi-acmaqdan-imtina-edib.html
[21] Amerikanın Səsi, (May 2022), https://www.amerikaninsesi.org/a/6582561.html
[22] BBC Azərbaycanca, (Sentyabr 2022), https://www.bbc.com/azeri/azerbaijan-63087206 , (Oktyabr 2022), https://www.bbc.com/azeri/azerbaijan-63380045;
Turan, (Noyabr 2022), https://www.turan.az/ext/news/2022/11/free/politics_news/az/11611.htm

üzləşib, digər jurnalist Türkan Bəşir isə çəkiliş zamanı polis tərəfindən qısa müddət saxladıqdan sonra sərbəst buraxılıb.

Aksiya zamanı saxlanılan şəxslərin əksəriyyəti sonradan sərbəst buraxılsalar da Müsavat partiyası və Milli Şuranın üzvü Tofiq Yaqublu İnzibati Xətalar Məcəlləsinin 510-cu maddəsi əsasında (xırda xuliqanlıq) Səbail Rayon Məhkəməsinin qərarı ilə 30 sutka inzibati qaydada həbs olunub. Yaqublu və hüquq müdafiəçiləri bu ittihamı əsassız sayaraq, onun siyasi sifariş əsasında həbs edildiyini bildiriblər.

### *e) İşgəncə və alçaldıcı rəftar halları*

İl ərzində toplanmış faktlar üzrə işgəncə və pis rəftarla bağlı 45 şikayət qeydə alınıb.

Bu şikayətlər 4 halda cəzaçəkmə müəssisələrində, 23 halda polis bölmələri və müvəqqəti saxlanma yerlərində, 13 halda isə saxlanma zamanı yaşanan hadisələrlə bağlı olub. Bu cür hallara insanların döyülməsi, təhqir olunması və psixoloji təhdidlər daxildir.

Bir çox hallarda saxlanılan şəxslərə uzun müddət ailələri və hüquq nümayəndələri ilə görüşməyə imkan verilməyib. Belə hallarda sonradan saxlanılan şəxsin işgəncə və qeyri-insani davranışa məruz qaldığı məlum olub. Məsələn, AXCP üzvü Əlizamin Salayevə yanvarın 13-də Səbail Rayon Məhkəməsi tərəfindən İnzibati Xətalar Məcəlləsinin polisə müqavimət göstərmək ittihamı ilə 30 sutka həbs cəzası verilib. Salayev bu ittihamı qəbul etməyib və kafedə partiya yoldaşları ilə yemək yeyərkən saxlanıldığını deyib. O yalnız yanvar ayının 24-də ailə üzvləri ilə görüşə bilib. Bu zaman o, bildirib ki, məhkəmədən sonra gətirildiyi Səbail Rayon Polis İdarəsinin 8-ci polis bölməsində işgəncələrə məruz qalıb. Polis rəisinin göstərişi ilə onun paltarları çıxardılıb, ondan tualet və zirzəminin döşəməsini təmizləmək tələb olunub və bu zaman videoçəkiliş aparılıb. Göstərişlərdən imtina etdikdə isə Əlizamin Salayevin əllərini bağlayıb saatlarla döyüblər.[23]

Yanvarın 31-də Nizami Rayon Məhkəməsi tərəfindən polisin qanuni tələbinə tabe olmamaq ittihamı ilə inzibati qaydada həbs edilən aktivist Fuad İsmayılov Nizami Rayon Polis İdarəsinin 25-ci polis bölməsində işgəncəyə məruz qaldığını və döyülərkən qulaq pərdəsinin zərər gördüyünü bildirib.[24] Həbsindən öncə onun sosial şəbəkələrdə Bakı şəhərindəki kafelərin birinin önündən keçərkən Türkiyə Respublikasının bayrağını saxlayan ipi kəsməsi videosu yayılmışdı.

Fevralın 17-də Bakıda yük avtomobillərinin sürücüləri Heydər Əliyev prospektində hərəkəti bağlayaraq, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə etirazlarını bildiriblər. Bu aksiyada iştirak edən sürücülər saxlanılıb və onlar barəsində Cinayət Məcəlləsinin 233-cü maddəsi (ictimai qaydanın pozulması ittihamı ilə) üzrə cinayət işi açılıb. Sürücülər Nərimanov Rayonunun 18-ci polis bölməsində saxlanılarkən, onların həbsi ilə bağlı araşdırma aparan hüquq müdafiəçiləri Rüfət Səfərov və Zaur Əkbər zorla polis bölməsinə aparıldıqlarını, bölmədə təhqir, hədə və fiziki zorakılığa məruz qaldıqlarını bildiriblər.[25]

Mayın 20-də həbs olunan keçmiş siyasi məhbus Rəşad Ramazanov məhkəmədə bildirib ki, saxlandıqdan sonra Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsində işgəncə altında ifadə

---

[23] Gözətçi.az, (Yanvar 2022), https://gozetci.az/az/pozuntular/r%c9%99is-dedi-ki-basini-soxun-unitazin-icin%c9%99/
[24] Gözətçi.az, (Fevral 2022), https://gozetci.az/az/pozuntular/h%c9%99bsd%c9%99-olan-ictimai-f%c9%99al-el%c9%99-doydul%c9%99r-qulagimin-p%c9%99rd%c9%99si-cirildi/
[25] ToplumTV, (Fevral 2022), https://toplum.tv/siyaset/huquq-mudafiecileri-polis-bolmesinde-doyulub-din-tekzib-edir

verməyə məcbur edilib.[26]

İctimai fəal Bəxtiyar Hacıyev il ərzində 4 dəfə saxlanılıb. O, martın 9-da Daxili İşlər Nazirliyi qarşısında etiraz edərkən polislər onun idarə etdiyi avtomobilin şüşələrini sındıraraq içəri daxil olub zorla Bakı Şəhər Baş Polis İdarəsinə aparıblar. Bəxtiyar Hacıyev orada  təhqirlərə və alçaldıcı davranışa məruz qaldığını bilidib.[27]
Hacıyev növbəti dəfə aprelin 21-də və avqustun 22-də küçədə mülki geyimli şəxslər tərəfindən oğurlanıb. Hacıyev sonradan mətbuata bildirib ki, hər iki halda o gözləri bağlanılaraq naməlum istiqamətdə aparılıb, ondan Daxili İşlər Naziri Vilayət Eyvazova qarşı tənqidləri dayandırmaq tələb olunub. O saxlanılarkən müxtəlif fiziki və psixoloji işgəncələrə məruz qaldığını, sonuncu dəfə oğurlanarkən üzərinə sidik ifraz olunduğunu və bu zaman videoçəkiliş aparıldığını bildirib.[28]

Hacıyev dekabrın 9-da yenidən saxlanılıb və Xətai Rayon Məhkəməsi Cinayət Məcəlləsinin 221-ci (Xuliqanlıq) və 289-cu (Məhkəməyə hörmətsizlik etmə) maddələri üzrə başlamış cinayət işi üzrə ona qarşı 1 ay 20 gün müddətində həbs-qətimkan tədbiri seçib. Hacıyev ona qarşı ittihamları qondarma hesab edir və həbsinin hökumətə qarşı siyasi tənqidlərinə görə olduğunu bildirib.

AXCP fəalı Rövşən Məmmədov bildirib ki, noyabrın 11-də AXCP-nin təşkil etdiyi etiraz aksiyasında saxlandıqdan sonra Səbail Rayon Polis İdarəsinin 8-ci polis bölməsinə gətirilib. O, öz vəkilinə polis bölməsində fiziki və psixoloji işgəncələrə məruz qaldığını, saatlarla döyüldüyünü bildirib.[29]

2022-ci davam edən məhkəmə iclasları ilə bağlı mediada dərc olunan reportajlarda il ərzində və daha öncəki tarixlərdə saxlanma yerlərində vətəndaşların işgəncələrə məruz qalmasına dair məlumatlar yayılıb. Belə ki, müxtəlif hallarda vətəndaşlar saxlanılarkən[30] və polis bölmələrində ifadə verərəkən mənəvi-fiziki işgəncələrə məruz qaldıqlarını, o cümlədən beysbol sopası,[31] dəyənəklə[32] döyüldüklərini, qolun sındırılması kimi ağır bədən xəsarətləri aldıqlarını bildiriblər. Ancaq bu cür işgəncə halları ilə bağlı cinayət işləri başlamayıb.

2021-ci ildə Avropa Şurası Parlament Assambleyasının 24 deputatı Azərbaycanı “Tərtər İşi”-ni yenidən və hərtərəfli araşdırmağa çağırıb.[33] Qeyd edək ki, ölkədə “Tərtər İşi” kimi tanınan istintaq prosesi 2017-ci ildə bəzi hərbçilərin dövlətə xəyanətdə günahkar bilinərək ağır işgəncələrə məruz qalmasından, bu zaman ən azı 11 nəfərin işgəncələrə dözməyərək həyatını itirməsindən, ümumilikdə isə xeyli sayda şəxsin yanlış şəkildə azadlıqdan məhrum edilməsindən bəhs edir. 2022-ci ildə yenilənən işlər nəticəsində 300-ə yaxın şəxs zərərçəkmiş kimi tanınıb, xeyli sayda şəxsə (bəzilərinə ölümündən sonra) bəraətin verilməsi təmin edilib.

---

[26] Gözətçi.az, (İyun 2022), https://gozetci.az/az/pozuntular/bloqerin-h%c9%99bsd%c9%99-isg%c9%99nc%c9%99y%c9%99-m%c9%99ruz-qaldigi-deyilir/
[27] Amerikanın Səsi, (Mart 2022), https://www.amerikaninsesi.org/a/6477213.html
[28] Amerikanın Səsi, (Aprel 2022), https://www.amerikaninsesi.org/a/bakhtiyar-hajiyev-says-he-was-tortured-and-insulted/6542131.html
[29] Gözətçi.az, (Oktyabr 2022), https://gozetci.az/az/pozuntular/aksiyada-h%c9%99bs-olunan-axcp-uzvu-isg%c9%99nc%c9%99y%c9%99-m%c9%99ruz-qaldigini-bildirib/
[30] Gözətçi.az, (Aprel 2022), https://gozetci.az/az/pozuntular/v%c9%99t%c9%99ndas-polisin-c%c9%99zalandirilmasini-t%c9%99l%c9%99b-edir/
[31] Gözətçi.az, (Yanvar 2022), https://gozetci.az/az/pozuntular/orada-6-gun-m%c9%99n%c9%99-sozl%c9%99-deyilm%c9%99y%c9%99si-zulm-verdil%c9%99r/
[32] Gözətçi.az,(Fevral 2022), https://gozetci.az/az/pozuntular/s%c9%99mkir-sakini-oglumun-%c9%99l-ayagini-baglayib-doyubl%c9%99r-basini-d%c9%99y%c9%99n%c9%99kl%c9%99-yariblar/
[33] Gözətçi.az, (Noyabr 2021), https://gozetci.az/az/aspa-nin-24-deputati-t%c9%99rt%c9%99r-isinin-arasdirilmasi-il%c9%99-bagli-cagiris-edib/

Dekabrın 9-da ABŞ Dövlət Departamenti Beynəlxalq İnsan Hüquqları Günü ərəfəsində insan hüquqlarının pozulması və korrupsiya faktlarına görə müxtəlif ölkələrdən olan 40-dan çox şəxsin sanksiyalara məruz qalamsına dair siyahı yayıb. Daxili İşlər Nazirliyi Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı Kərim Əlimərdanov da bu siyahıya daxil edilib. Bununla bağlı ABŞ Dövlət Departamentin bəynatında qeyd edilir ki, Əlimərdanov kobud insan hüquqları pozuntularında, yəni 2015 və 2016-cı illərdə məhbuslara işgəncə verməkdə iştirakına görə cinayət məsuliyyətinə cəlb edilir. Sanksiyaların nədən ibarət olduğu barədə məlumat verilməsə də, təxmin edilir ki, buraya ABŞ-a girişin qadağan edilməsi, ABŞ-dakı hesabları və əmlakı əgər varsa, onlara həbs qoyulması kimi tədbirlər daxildir.

**Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icra vəziyyəti**

2022-ci il ərzində Avropa Şurası Nazirlər Komitəsi Azərbaycandan olan ərizəçilərin şikayətləri üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin müxtəlif illərdə qəbul etdiyi qərarların icrası ilə bağlı bəzi tədbirlər həyata keçirlib. Ümumilikdə Azərbaycan hökuməti məhkəmənin qərarlarının icrasında yarımçıq və qeyri-effektiv addımları ilə yadda qalıb.

***a) Namazov qrup işi***

Namazov işində Avropa Konvensiyasının 6-cı (ədalətli məhkəmə araşdırması hüququ), 8-ci (şəxsi həyata və ailə həyatına hörmət hüququ) və 10-cu (fikri ifadə etmək azadlığı) maddələrinin pozuntularından bəhs edilir. Namazov işi çərçivəsində AİHM-in Azərbaycanla bağlı 3 qərarının (Elçin Namazov, Xalid Bağırov, Aslan İsmayılov Azərbaycana qarşı qərarları) icrasına nəzarət edilir. Qərarların hər biri adıçəkilən vəkillərin Azərbaycan Vəkillər Kollegiyasından xaric edilməsi ilə bağlıdır. AİHM bu işlərdə həmin vəkillərin xeyrinə qərar vermişdi.

Dekabrın 6-9-da keçirlən toplantısında Avropa Şurası Nazirlər Komitəsi Namazov qrup işi ilə bağlı qətnamə qəbul edib.[34] Komitə qeyd edib ki, Aslan İsmayılovun işində Ali Məhkəmə tərəfindən bəraət verilməsi və onun vəkilliyə bərpası müsbət addım olsa da, oxşar addımlar yubanma olmadan digər iki ərizəçiyə də şamil olunmalıdır. Bundan başqa Komitə Azərbaycanı vəkillərə qarşı qeyri-qanuni intizam tədbirlərindən çəkinməyə, intizam icraatları və tətbiq mexanizmlərinin Konvensiyaya uyğunlaşdırılmasına dəvət edib.

***b) Mahmudov və Ağazadə qrupu***

Mahmudov və Ağazadə qrupunda AİHM-in Azərbaycanla bağlı 4 qərarının (Tağıyev və Hüseynov Azərbaycana qarşı, Fətullayev Azərbaycana qarşı, Mahmudov və Ağazadə Azərbaycana qarşı, Əli Həsənov Azərbaycana qarşı) icrasına nəzarət edilir. Bu qərarlar ifadə azadlığı hüququnun pozuntusu, böhtan və təhqirə görə cinayət cəzalarının tətbiqi ilə bağlıdır. Komitənin 2022-ci ilin sentyabrın 21-də keçirlən görüşündə bu qrup işi üzrə qətnamə qəbul edilib.[35]

Qətnaməyə görə, Komitə Azərbaycanı uzunmüddətli həbs hallarını aradan qaldırmaq üçün defamasiya

---

[34] Avropa Şurası Nazirlər Komitəsi, (Dekabr 2022), https://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2022)1451/H46-5E Avropa Məhkəməsi Gündəliyi, (Dekabr 2022), https://aihmaz.org/no-74354-13-namazov-isi-qrupu-6-8-dekabr-2022-ci-il/

[35] Avropa Məhkəməsi Gündəliyi, (Sentyabr 2022), https://aihmaz.org/%e2%84%9635877-04-mahmudov-v%c9%99-agazad%c9%99-qrupu-az%c9%99rbaycana-qarsi-20-22-sentyabr-2022-ci-il/

qanunvericiliyini dəyişmək üçün düşünülən addımları bölüşməyə çağırır və cinayət məcəlləsinin ifadə azadlığını qeyri-qanuni boğmaq üçün istifadə praktikasına qarşı konkret addımlar irəli sürmək çağırışını təkrarlayır.

Sənəddə Azərbaycan hökumətinin “Media haqqında” qanun layihəsi hazırlaması qeyd edilib. Komitə hökuməti yeni qanun layihəsinin Avropa Konvensiyasının tələblərinə uyğun olmasını təmin etmək məqsədilə Avropa Şurası ilə sıx əməkdaşlığa dəvət edib.

### c) Qafqaz Məmmədov qrupu

Bu iş müxalifətin planlaşdırıb, təşkil etdiyi və ictimai asayiş baxımından heç bir təhlükə doğurmayan dinc etiraz aksiyasının dağıdılması və ərizəçinin sərbəst toplaşmaq azadlığına çoxsaylı aşırı müdaxilələrin edilməsi ilə bağlıdır. Komitə sonuncu dəfə 1419-cu iclasında (2021) qeyd edib ki, bu qrupa daxil olan işlər üzrə təzminat məbləğlərinin ödənilməsində problemlər var - 21 iş üzrə təzminatlar ödənilsə də, 5 ərizəçi hələ də təzminatın ödənilməsini gözləyir. Komitə, həmçinin sərbəst toplaşamq azadlığına təminatla bağlı həm qanunvericilikdə, həm də praktikada struktur problemlərin olduğunu qeyd edib.

2022-ci ildə bu işlə bağlı göndərdiyi yeganə məlumatda Azərbaycan hökuməti yalnız daha bir ərizəçiyə kompensasiyanın ödənilməsi ilə bağlı məlumat təqdim etsə də, qərarların icrasına dair digər ərizəçilərin kompensasiyası və ümumi xarakterli tədbirlərdən bəhs olunmayıb.

### d) Məmmədli qrupu

Məmmədli işi qrupunda AİHM-in Azərbaycanla bağlı qəbul etdiyi 6 qərarın icrasına nəzarət edilir. Həmin qərarlar Anar Məmmədli, İntiqam Əliyev, İbrahimov və Məmmədov, Xədicə İsmayılova, Arif və Leyla Yunuslar, Azizov və Novruzlu işləri ilə bağlıdır. Bu qərarlar ərizəçilərin aktiv siyasi və ictimai iştirakçılıqlarına, hökuməti tənqidə, insan hüquqları və seçkiləri izləmə sahəsində fəaliyyətlərinə görə Konvensiyanın 18-ci maddəsinə zidd olaraq məhkəməyə qədər həbs edilmələri, azadlıqdan məhrum olunmaları və məhkəmə-hüquq sisteminin siyasi məqsədlərlə sui-istifadə olunması ilə bağlıdır.

Ali Məhkəmənin Plenumu 2022-ci ilin 30 sentyabrında isə Məmməd Əzizov və Şahin Novruzlu işi üzrə iki nəfərə bəraət verib. Komitə 1451-ci iclasında bu qərarı alqışlasa da, yerdə qalan 7 nəfərin işində bəraət verilməməsinə bir səbəbin olmadığını vurğulayıb və dəfələrlə etdiyi çağırışı təkrarlayaraq Azərbaycanl bu qrup işində adı keçən şəxslərin hüquqlarını dərhal bərpa etməyə çağırıb.[36]

Qeyd edək ki, qrup ilk yarandığı gündən 16 ərizəçinin işini əhatə etsə də, sonradan 9 nəfərin işlərində bəraət və cinayət işinə xitam qərarlarına görə icraya nəzarət dayandırılıb. Ancaq Ali Məhkəmə Anar Məmmədli, İntiqam Əliyev, Xədicə İsmayılova, Arifvə Leyla Yunuslar, Qiyas İbrahimov və Bayram Məmmədovla bağlı Komitənin çağrışlarına məhəl qoymayıb.

[36] Avropa Şurası Nazirlər Komitəsi, (Sentyabr 2022), https://hudoc.exec.coe.int/ENG?i=CM/Del/Dec(2022)1451/H46-4E

## V. NƏTİCƏLƏR VƏ TÖVSİYYƏLƏR

2022-ci il ərzində sosial, mülki və siyasi hüquqlar üzrə SMDT-nin qeydə aldığı pozuntular və şikayətlərin miqyası göstərir ki, Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində siyasi böhran dərinləşməkdə davam edib.

***SMDT aşağıdaki sahələrdə hüquq pozuntularının sistemli xarakter daşıdığına müəyyən edərək, ilin yekunu ilə bağlı müvafiq naticələrə gəlib:***

- 2022-ci il ərzində siyasi motivli təqiblər və təzyiqlər davam edib, siyasi məhbusların sayında xüsusi dəyişiklik baş verməyib. Sosial mediada çıxışlarına, müxalif fikirlərinə görə siyasi və ictimai fəalların saxlanılması, təzyiq və təhdidlərə məruz qalması, ifadə azadlığı və birləşmək hüququnun kobud şəkildə pozulmasıhalları artıb. “Media haqqında” qanun yerli ekspertlər və Avropa Şurası Venesiya Komissiyasının mənfi rəyi nəzərə alınmadan qəbul edilib. Eyni şəkildə “Siyasi partiyalar haqqında” məhdudlaşdırıcı qanun yerli və beynəlxalq ekspertlərin rəyləri, habelə beynəlxalq təcrübə nəzərə alınmadan qısa müddət ərzində qəbul edilib.
- Sosial və siyasi tələblərlə keçirilən əksər aksiyalar polis müdaxiləsi ilə dağıdılıb, aksiya iştirakçılarının sərbəst toplaşmaq və azadlıq hüququ həm aksiya zamanı, həm də aksiyadan sonra kobud şəkildə pozulub.
- Siyasi motivli inzibati və cinayət işləri üzrə istintaq və məhkəmə prosesləri zamanı ədalətli məhkəmə araşdırması hüququnun tələbləri pozulub, bununla da hüquq-mühafizə orqanları ilə məhkəmlər vasitəsilə siyasi qorxu mühitinin saxlanmasına çalışılıb.
- İl ərzində polis idarələri, müvəqqəti saxlanma yerləri və həbsxanalarda işgəncə və pis rəftala bağlı çoxsaylı məlumatlar yayılsa da, bu hallarla bağlı faktların araşdırılması baş verməyib.
- Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) Azərbaycandan olan ərizəçilərlə bağlı qərarları üzrə Avropa Şurası Nazirlər Komitəsinin qruplaşdırdığı işlər və tövsiyələr əsasında məhkəmə-hüquq sistemi və milli qanunvericiliyin təkmilləşdirilməsi yönündə islahatlar baş verməyib, zərərçəkmiş şəxslərlə bağlı AİHM-in müəyyən etdiyi pozuntuların aradan qalxması, habelə keçmiş siyasi məhbusların bəraət alması yönündə ayrı-seçkilik müşahidə edib.

***SMDT mülki və siyasi hüquqların müdafiəsi üzrə vəziyyətin təkmilləşməsi və mövcud siyasi böhranın aradan qalxması üçün dövlət orqanlarına aşağıdakı tədbirlərin görülməsini təklif edir:***

- Azərbaycanda məhəmə-hüquq sisteminin müstəqilliyinin təmin olunması ilə bağlı Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələri icra olunsun, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası təmin olunsun və müvafiq pozuntulara cavabdeh şəxslərin hüquq-mühafizə və məhkəmə sistemindən uzaqlaşdırılması təmin edilsin

- Hakimiyyət siyasi iradə nümayiş etdirərək, siyasi təqibləri dayandırmalı, siyasi motivlər əsasında həbs edilmiş məhbsuların azadlığa çıxmasını təmin etməlidir;

- İşgəncə və pis rəftarla bağlı vətəndaşların şikayətləri vaxtında və şəffaf şəkildə araşdırılmalı, müvəqəqti saxlama yerləri, istintaq təcridxanaları və həbsxanalarda ictimai nəzarət təmin edilməldir;

- Vətəndaşların ifadə azadlığının müdafiəsi ilə bağlı AİHM-in müvafiq qərarlarından irəli gələn müddəalar icra edilməli, sosial media istifadəçilərinə qarşı təqiblər dayandırılmalı, “Media haqqında“ qanunun Avropa Şurası və ATƏT standartları əsasında təkmilləşdirlməsi təmin edilməlidir;

- Vətəndaş cəmiyyəti qurumlarının fəaliyyətinə məhdudiyyətlər yaradan "QHT-lər haqqında", "Hüquqi şəxslərin reyestri haqqında" və "Qrant haqqında" qanunlar Avropa Şurası Venesiya Komissiyasının müvafiq tövsiyələri əsasında təkmilləşdirilməlidir;
- Müxalif siyasi partiyalar və hərəkatların fəaliyyətinə məhdudiyyətlər aradan qaldırılmalı, "Siyasi partiyalar haqqında" qanun Avropa Şurası Venesiya Komissiyasının rəyi əsasında təkmilləşdirilməlidir.

**Əlaqə:**


Telefon: (+994 70) 340 34 34
E-poçt: emc.az2001@gmail.com
Veb: www.smdtaz.org
Facebook: www.facebook.com/AZElections
Tvitter: SMDT_EMDS